“ Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru
_________ prof. C.M.Cəfərov
“__” ______ 2022-ci il

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***

***“Fiziologiya” kafedrasının***

***2022 – 2023 – ci tədris ili üzrə***

# *İş planı*

| *N* | *Tədbirin adı* | *İcra müddəti* |
|---|---|---|
| **1** | **2** | **3** |
| ***1.*** | 2022– 2023– cü tədris ilinə hazırlığın vəziyyəti, keçən tədris ilinin nəticələrinin müzakirəsi | VII-VIII aylar |
| ***2.*** | 2023–ci ildə dövlət standartlarının yenidən hazırlanması ilə əlaqədar fənn proqramlarının yenidən hazırlanması və dərs deyən müəllimlərə çatdırılması | 2022 |
| ***3.*** | Fənn sillabuslarının təkmilləşdirilməsi, kafedranın iclasında müzakirəsi və təsdiqi | Hər semestrin əvvəli |
| ***4.*** | 2022 – 2023 - ci tədris ili üçün müəllimlərin fərdi iş planlarının müzakirəsi, mühazirə mətnlərinin proqrama uyğunluğunun yoxlanılması | Müntəzəm olaraq |
| ***5.*** | Laboratoriya ( seminar) materiallarının proqrama uyğunluğunun müzakirəsi və təsdiqi | Hər il |
| ***6.*** | Dərslərə nəzarətin təkmilləşdirilməsi məqsədilə kafedrada dərs cədvəllərinin kafedrada tərtibi | 15.09.2022<br>01. 01. 2023 |
| ***7.*** | Dərslərin keyfiyyətini yüksəltmək məqsədilə açıq dərslərin keçirilməsi və müzakirəsi | Tədris ili daxilində |
| ***8.*** | Dərslərin gedişinə və keyfiyyətinə nəzarət, kafedranın nəzdində vivariumun təşkili. | Tədris ili daxilində |
| ***9*** | Dərslərin əyani vasitələrlə və İKT – nin tətbiqi şəraitində aparılmasına nəzarət. | İl boyu |
| ***10*** | Tədris köməkçi heyətinin fəaliyyətinin səmərəli təşkili | Tədris ili daxilində |
| ***11*** | Elmi tədqiqat işlərinin məzmununun müasir tələblərə uyğunmlaşdırılması icrasının təşkili və ətraflı müzakirəsi. | Oktyabr – noyabr 2022 |
| ***12*** | Kafedra üzrə TEC-in təşkili,tələbələri elmi tədqiqat işinə həvəsləndirmək | Vaxtaşırı |
| ***13*** | Dissertantlarla iş; tamamlanmış dissertasiya işlərinin kafedrada müzakirəsinin təşkili | Müvafiq vaxtlar |
| ***14*** | Aparıcı təşkilat kimi kafedraya daxil olmuş dissertasiyaların müzakirəsinin təşkili, kafedraya daxil olmuş elmi – tədqiqat işlərinə, dərslik və dərs vəsaitlərinə rəylərin verilməsi. | Vaxtaşırı |
| ***15*** | İmtahanqabağı məsləhətlərin təşkili və icrasına nəzarət | Vaxtaşırı |
| ***16*** | Tələbələrin hazırlıqlarının keyfiyyətini artırmaq məqsədilə müəllimlərin kafedrada imtahanqabağı növçətçiliyinin təşkili. | Vaxtaşırı |

| | | |
|---|---|---|
| | | |
| ***17*** | Sənədləşmənin təşkili;<br>**a)** Kafedraya daxil olan sənədlərin qeydə alınması<br>**b)** Kafedradan çıxan sənədlərin qeydiyyatının aparılması<br>**c)** Kafedra iclaslarının potokollarının kitabda işlənilməsi<br>**d)** Kafedra daxili dərsliklərin,dərs vəsaitlərinin və s. uçotu<br>**e)** Imtahan suallarının və biletlərinin kafedra iclasında müzakirəsi və təsdiqi<br>**f)** Yeni tərtib ediləcək fənn proqramlarına yeniliklərin daxil edilməsi<br>**g)** Elmi seminarların keçirilməsi.Elmi tədqiqat işlərinin elmi konfranslara təqdim olunması və çap edilməsi<br>**h)** Kafedranın strukturunun və "kafedra profaylının" elektron, PowerPoint və fayl (çap ) versiyalarının hazirlanması | İl boyu |
| ***18*** | Kurs işi mövzularının ,dövlət attestasiya imtahan suallarının müzakirəsi və təsdiqi | İl boyu |
| ***19*** | Tələbələrdə vətənpərvərlik hisslərini artırmaq məqsədilə mədəni – siyasi diskusiyaların aparılması. | Sentyabr – oktyabr 2022 |
| ***20*** | Kafedranın profilinə uyğun tanınmış mütəxəssisləirin görüşmələrinin təşkili. | Vaxtaşırı |
| ***21*** | Müəllimlərin illik hesabatlarının tərtib edilməsi və fərdi iş planlarının yerinə yetirilməsinin müzakirəsi | Hər ilin may – iyun ayları |
| ***22*** | Qış – yay imtahan sessiyalarının təşkili. | Mütəmadi |
| ***23*** | Hər il tədris ilinə hazırlıq işlərinin təşkili. | İyul 2022 |
| ***24*** | Mühazirə mətnlərinin müzakirəsi | Mütəmadi |
| ***25*** | Dərs prosesində müasir dövrün tələblərinə cavab verən müasir metodların, o cümlədən interaktiv təlim metodlarının, habelə informasiya – kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi tədbirləri. | Mütəmadi |
| ***26*** | Kafedranın professor – müəllim heyətinin ölkə daxilində və qabaqcıl xarici ölkələrdə treninqlərə cəlb olunmasının təşkili. | Mütəmadi |
| ***27*** | Ali təhsildə kredit sisteminin tətbiqi, bu sahədəki yeniliklər və qabaqcıl dünya ölkələrinin təcrübəsi barədə kafedra əməkdaşlarının məlumatlandırılması. | Mütəmadi |
| ***28*** | Kafedranın tədris etdiyi tələbələrin biliyinin qiymətləndirilməsinin Avropa Kredit Trancferi Sistemi tələblərinə uyğun olaraq, daha müasir, mütərəqqi və şəffaf mexanizminin qurulması. | Mütəmadi |
| ***29*** | Kafedraya elmi – tədqiqat içləri əlaqədar qrantların və təsərrüfat hesablı işlərin gətirilməsi. | Vaxtaşırı |

**Fiziologiya kafedrasının müdiri: dos.E.Mehbalıyeva**

**“ Təsdiq edirəm”**

***Azərbaycan Dövlət Pedaqoji***

***Universitetinin rektoru***

***_________ prof. C. M. Cəfərov***

***“____”___________2022 – ci il***

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin fakültə Elmi Şurasının**

**“09” sentyabr 2022- ci il tarixli “01” saylı protokolu ilə təsdiq edilmişdir.**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Fiziologiya” kafedrasının əsasnaməsi**

**1**. “Fiziologiya” kafedrası ADPU – nun Kimya və biologiya fakültəsinin əsas tədris və elmi struktur vahidlərindən biridir. Biologiya və onunla əlaqəli fənlər üzrə tədris,metodiki,elmi işçilərin,elmi – pedaqoji kadrların hazırlanması,yenidən hazırlanması,ixtisasların artırılması,təhsil alan tələbələr arasında təlim-tərbiyə işlərini həyata keçirir.

**2.** “Fiziologiya” kafedrası Azərbaycan Respublikası Qanunvericiliyinə, Təhsil Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirlinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnamə”sinə, ADPU – nun Nizamnaməsinə, ali təhsil müəssisəsinin professor – müəllim heyətinin vəzifələrə seçilməsi və attestasiyası qaydalarına və bu Əsasnaməyə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.

**3.** “Fiziologiya kafedrasına ümumi rəhbərlik, bir qayda olaraq elmi dərəcəsi və elmi rütbəsi olan kafedra müdirinin təqdimatı tərəfindən həyata keçirilir. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə müavinləri ola bilər. Kafedra müdirinin müavinləri rektor tərəfindən təyin edilir.

**4.** “Fiziologiya” kafedrasının kollektiv idarəetmə orqanı onun ayda bir dəfədən gec olmayaraq çağırılan ümumi yığıncağıdır.

**5.** “Fiziologiya” kafedrasının tərkibinə daxildir - kafedra müdiri, professorlar, dosentlər, məsləhətçilər, baş müəllim, müəllim və assistentlər, elmi işçilər, doktorantlar, digər kateqoriyadan olan işçilər ( tədris köməkçi heyəti)

**6.** “Fiziologiya” kafedrasının əsas vəzifələri:

- bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, laboratoriya, praktiki seminar,məşğələ və digər dərslərin yüksək elmi-nəzəri səviyyədə aparılmasını təmin etmək;
- kurs və buraxılış işlərinin icrasına (layihələrinə), tanışlıq, istehsalat,pedaqoji və digər təcrübələrə, tələbələrin fərdi işlərinə rəhbərlik etmək;
- cari imtahanların və aralıq yoxlamaların keçirilməsini təmin etmək;
- dövlət imtahanlarının təşkilində və keçirilməsində fəal iştirak etmək;
- təhsil alanlar arasında fəal vətəndaş mövqeyinin formalaşması işində iştirak etmək;
- kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanmasını, müvafiq qaydada təsdiq edilmək üçün təqdim olunmasını təşkil etmək, digər kafedraların hazırladığı tədris proqramlarına rəy vermək;
- dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik, təlimat, göstəriş, əyani vəsait və b. hazırlanmasını təmin etmək, rektorluğun (fakültənin) göstərişi ilə dərslik, dərs vəsaiti və tədris-metodiki ədəbiyyata rəy vermək;
- elmi-tədqiqat işlərinin aparılmasını təşkil etmək, doktorantların elmi-tədqiqat işlərinə rəhbərlik etmək;
- tamamlanmış elmi-tədqiqat işlərinin müzakirəsini təşkil etmək, onların istehsalatda (praktikada ) tətbiq edilməsi və ya nəşr edilməsi üçün rəy vermək,tələbələri elmi-tədqiqat işlərinə cəlb etmək;
- kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin fərdi planlarının tərtib olunmasını və onların icrasını təmin etmək;
- institutun, respublikanın və xarici ölkələrin ali məktəblərinin pedaqoqlarının qabaqcıl (səmərəli ) iş təcrübəsinin öyrənilməsini və yayılmasını təşkil etmək;
- tədris prosesində müasir texniki vasitələrdən, yeni metodikalardan istifadə edilməsinə dair tədbirlər hazırlayıb həyata keçirmək;
- elmi – pedaqoji və elmi kadrların hazırlanması üçün tələbələrlə və doktorantlarla işi təşkil etmək;

- kafedra əməkdaşlarının dissertasiyasının yüksək səviyyədə hazırlanmasına kömək etmək, həmçinin rektorluğun (fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarını müzakirə edib rəy vermək;
- müasir texnologiyaların tətbiqi üzrə qabaqcıl təcrübənin öyrədilməsi və yeni iş metodlarının istehsalata tətbiq edilməsi məqsədi ilə müxtəlif müəssisə və təşkilatlarla əməkdaşlığı təmin etmək, qarşılıqlı faydalı əlaqələri genişləndirmək;
- pedaqoji sahədə çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərmək, pedaqoji müəssisələrlə müqavilə əsasında müxtəlif xidmətləri təmin etmək, araşdırmalar aparmaq, proqramlar və təkliflər hazırlamaq;
- ADPU-nun bakalavr, kafedranın magistr və doktorant məzunları ilə daim əlaqələri təmin etmək;
- Pedaqoji sahənin inkişafının yüksək səviyyədə təşkil edilməsi məqsədi ilə kafedrada tədris edilən fənlər üzrə elmi biliklərin təbliğinin təşkil edilməsi.

**7.** Kafedra ADPU Elmi Şurasının qərarı ilə, ən azı 5 professor – müəllim (o cümlədən onlardan 3 nəfəri elmi dərəcəyə malik) olduqda yaradılır. Kafedranın illik tədris yükü 3 min saatdan az olmamalıdır.

**8.** Kafedra iclaslarına ADPU-nun əməkdaşları, Himayəçilər Şurasının üzvləri, digər ali məktəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilərlər.

**9.** “Fiziologiya” kafedrasının iclaslarında aşağıdakı məsələlər müzakirə edilir:

- kafedra müdirliyinə seçimlə əlaqədar namizədlərin müzakirəsi;
- kafedranın bütün fəaliyyət növləri üzrə gördüyü işlər, professor - müəllim heyətinin, doktorantların, magistr təhsili alan, staj keçən və ya fərdi planla təhsil alan tələbələrin tədris-tədqiqat planları və hesabatları;
- kafedrada tədris olunan kurslar üzrə tədris vəsaitləri, proqramları, mühazirə,laboratoriya və imtahan materialları;
- müəllimlərin tədris yükünün bölünməsi və tədris yükünün yerinə yetirilməsinin vəziyyəti;
- kafedra tərəfindən təşkil edilən seminarların, konfransların, sərgilərin və s. tematikası, onların keçirilməsinin nəticələri;
- yoxlama, kurs və buraxılış işlərinin tematikası, rəhbərlərin və rəy verənlərin təyin edilməsi, kurs və buraxılış işlərinin müdafiəyə hazırlanması vəziyyəti;
- elmi və metodiki işlərin nəşr olunmasına dair təqdimatların verilməsi;
- tədris olunan fənlər üzrə sərbəst proqramla təhsil alan tələbələrin işlərinin mövzularının müəyyənləşdirilməsi;
- sərbəst işlərin hazırlanması, təhvil verilməsi və qiymətləndirilməsi qaydalarının müəyyən edilməsi.

**10.** “Fiziologiya” kafedrası mövcud normativ hüquqi aktlara uyğun olaraq qarşısına qoyulmuş vəzifələri yerinə yetirmək üçün öz səlahiyyətləri daxilində digər məsələləri də müzakirə edib müvafiq qərar qəbul edə bilər.

- Kafedra iclaslarında qəbul olunan qərarlar haqqında fakültənin rəhbərliyinə, zərurət olduqda isə ADPU-nun rektorluğuna və ya Elmi Şurasına məlumat verilir.

**11.** “Fiziologiya” kafedrasının iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyyə və ya təqdimatlar verilə bilər:

- öz səlahiyyətləri daxilində kafedra müəllimlərini xarici ölkələrə, stajkeçmə və ixtisasartırma kurslarına, yaradıcılıq və tədqiqat ezamiyyətlərinə göndərmək üçün, eləcə də doktoranturaya qəbulla bağlı təqdimat vermək;
- müəllim və elmi işçilərin kafedraya işə qəbulu haqqında işəgötürmə komissiyasına tövsiyə, onlarla müqavilə bağlanması, mövcud qanunvericiliyə uyğun olaraq onlara vəzifə maaşı və əlavələrin təyin edilməsi haqqında müraciət hazırlamaq;
- magistraturaya, doktoranturaya qəbul və iddiaçıların kafedraya təhkim olunması ilə bağlı təkliflər vermək;
- tələbələrin fərdi planlarına uyğun təhsilə keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;
- əməkdaşların rəğbətləndirilməsi və ya cəzalandırılması ilə bağlı əsaslandırılmış təqdimat vermək;
- kafedranın müəllimlərinin, elmi işçilərinin və digər əməkdaşlarının vəzifədən kənarlaşdırılması haqda təqdimat vermək;
- digər təkliflər vermək.

**12.** "Fiziologiya" kafedrasında iclaslarında qərarlar açıq və ya gizli səsvermə yolu ilə, sadə səs çoxluğu ilə qəbul edilir.

**13.** "Fiziologiya" kafedrasının müdiri:

- kafedranın fəaliyyətinə rəhbərlik edir, onun işini planlaşdırır və təşkil edir;
- kafedra iclaslarını çağırır, onlara sədrlik edir;
- Elmi Şura qarşısında kafedranın fəaliyyəti barədə hesabat verir;
- kafedranı təmsil edir;
- kafedra müdirinin müavinləri vəzifələrinə namizədləri təklif edir;
- kafedranın fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşıyır.

**14.** "Fiziologiya" kafedrasında kargüzarlıq mövcud qanunvericiliyə və ADPU-da qəbul edilmiş qaydalara uyğun olaraq aparılır.

**15.** Əsasnaməyə əlavələr və dəyişikliklər, onun qəbul olduğu qaydada həyata keçirilir.

**Əsasnamə** kafedranın __ sentyabr 2022-ci il tarixli iclasında qəbul edilmişdir.

**Kafedra müdiri: ____________________ dos. E.C.Mehbalıyeva**